azpromo

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu

# İxrac missiyamız Dubay şəhərindədir

Image not readable or empty
/uploads/images/library/d73787a7d6283da8b86f85c4cffc4521_600x500-resize_crop-2318.jpg

Azərbaycanın növbəti ixrac missiyası Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərindədir.
“Made in Azerbaijan” brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi və AZPROMO-nun təşkilatçılığı ilə təşkil olunmuş ixrac missiyasına meyvə şirələri, təbii mineral sular, meyvə-tərəvəz məhsulları, quru meyvə, konservləşdirilmiş məhsullar, bal, çay, süd və süd məhsullarının, ət və ət məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən yerli şirkətlərin nümayəndələri daxildir.
Azərbaycan iş adamları BƏƏ şirkətləri ilə ikitərəfli görüşlər keçirib, Azərbaycan məhsullarının market və bazarlarda satış imkanları və distributorluq məsələləri müzakirə olunub. Azərbaycanın "Brightman BMC" şirkətinin konservləşdirilmiş məhsullarının BƏƏ-yə və Banqladeşə ixracına dair "Al-maya" və "Lulu" marketlər şəbəkələri və "Al-Ghamdi trading" şirkəti ilə ilkin razılıq əldə edilib.
Azərbaycanın "Sunfood" şirkəti nar şirəsinin və çayın, "Kerkom" və "Azəri - bal" şirkətləri isə balın BƏƏ-yə ixracına dair "Al-maya", "Lulu", "Al-Qudva" marketlər şəbəkələri ilə danışıqlara başlayıblar.
İxrac missiyasının iştirakçıları həmçinin, bazar və iri marketlər şəbəkələrinin fəaliyyəti ilə tanış olublar.